# XIV ƏSR AZƏRBAYCAN POEZİYASI

## FƏZLULLAH NƏİMİDƏN İMADƏDDİN NƏSİMİYƏ

*(Əvvəli ötən saylarımızda)*

Bütün təhlillər və günümüzə qədər görülən işlər İ.Nəsiminin şəxsiyyət modelindən (özü timsalında) boy göstərməklə müxtəlif səviyyələrdə təhlil-yozumlarla və əfsanələşməyə meyilli dürlü olaylarla səciyyələnir. Bunlar bir istiqamətdə şairin özünə inamı timsalında söylədiyi fikir və mülahizələrdən başlayıb (məsələn, "Nəsimi sözünü hər kimsə kəsb edə bilməz, ol bir quş dilidir, onu Süleyman bilir ancaq") çağdaş zaman çevrəsində deyilənənlərə qədər geniş bir fakturanı əhatə edir. Əlbəttə burada müxtəlif elm sahiblərinin (dilçi, ədəbiyyatşünas, folklorşünas, etnoqraf, tarixçi, musiqişünas, filosof, siyasətçi və s.) mülahizə və qənaətləri də özünə yer alır və dövr, mühit, ədəbi-mədəni, ictimai-siyasi hərəkat, məfkurə axınları timsalında faktlaşır.

Yaşadığı zaman, dolaşdığı Şərq diyarları, elm, mərifət, ürfan ocaqları hürufi ideyaları ilə onu "dövr anın dövranıdır" düşüncəsinə gətirib çıxarmışdır. Həmin düşüncədən başlayan hərəkat türkman ellərini, Yaxın və Orta Şərqi əhatələməklə "aləmin sultanı" qənaəti ilə sonuclanmışdır. Bu gün dünyanın siyasi dolaşıqlıqları, artan təlatüm və gizlin izdivacları orta əsrlərdə kamil insan məsələsini əks arqument kimi ortaya qoyurdu. Çünki siyasi mühitin iddialarında bir tərəf olaraq insan dəyərsizləşdirilirdisə (hakim zümrənin oyunbazlıqları, şəhərlərin, kəndlərin mənəm-mənəmlik ucbatından xarabalığa çevrilməsi, köçlər, qırğınlar və s., və i.), digər tərəfdə buna qarşı dayanacaq fikir axınları, təriqətlər ətrafında toplaşan geniş kütlə vardı. H.Mənsurun, F.Nəiminin, İ.Nəsiminin, C.Ruminin və başqalarının bu kontekstdə göstərdiyi fəaliyyət prinsipi (sufilik, hürufilik və onun ayrı-ayrı xətləri timsalında) bunun bariz göstəricisidir. İ.Nəsiminin, eləcə də sələfləri H.Mənsurun, F.Nəiminin bir qədər dərinə getsək Zərdüştün yaşadığı və qarşılaşdığı aqibət bunun göstəricisidir. Buraya İsa peyğəmbərin çarmıxa çəkilməsi, Musa peyğəmbərin üzləşdiyi mürəkkəbliklər, Yusifin zaman-zaman yaddaşları cilalayan aqibətini də əlavə etmək olar. Bütün bunlar mühit və insan, cəmiyyət və sosial problemlər, hakimiyyət və xalq timsalında olanlardı. Bunların rəvayət, hadisə, əhvalat, dastan, hekayət və s. timsalında bədii sferaya daxil olması və dünyanın o başından bu başına yaddaşları əhatələməsi (bəlkə də əzizlənməsi) insanın ehtiyaclarını, mənəvi tələbatını və istəyini əks etdirmək gücü ilə önəm qazanır. XIV əsrdə "dövr anın, dövran anın dövranıdır" deyən İ.Nəsimi şəxsiyyət və yaradıcı formulunda "aləmin sultanı" olmasını təbii prosesdə görür və dərk edirdi. Tarix, mühit və cəmiyyət timsalında mövcud gərginlikləri taleyi ilə yaşayan İ.Nəsimi ürfan və həyat həqiqəti timsalında ciddi bir ortaqlıq xəttində də görünür. Ona görə də görkəmli sənətkarın yaradıcılığının ayrı-ayrı qatlarını (bəlkə də istiqamətlərini) sıralamaq üçün birbaşa onun fikir axarını sistemli şəkildə izləməyi gərəkli edir. "Ayağını bu torpağa hörmətlə bas, unutma ki, şahlar başı torpaq olmuş, gəlib-gedən üstə gəzər" qənaəti bütün məzmun qatları ilə tarixə və insanlığa ünvanlanmış bir düşüncə konseptidir, daha doğrusu, bir sayğı olaraq keçmişə və sabaha ünvanlanmış dəyərdir. "...Şeyx Fəridəddin Əttar, Mövlana Rumi və Yunus Əmrə kimi görkəmli mütəsəvviflərin yaradıcılığını araşdırarkən bu şairlərin şeirin formal xüsusiyyətlərinə və sabit qanunlarına çox da bağlı olmadığı qənaətinə gəlmişlər. Nəsimi şeiri isə bu baxımdan sələflərindən ayrılır. Mütəfəkkir, filosof olduğu kimi, rübabı şair də olan Nəsiminin yaradıcılığında divan şeirinin başlıca işlək, aparıcı bədii fiqurlar toplusu və bədii sənətlərin silsiləli düzümünü tapmaq mümkündür. Bir sıra fiqurlar yalnız Nəsimi yaradıcılığında işləndiyi, sonrakı yüzilliklərdə isə ya zəiflədiyi, yaxud işləklikdən qaldığı üçün bu böyük sənətkarın Azərbaycan poetika tarixində müstəsna mövqeyi vardır" (15, 296). Ona görə də Nəsimi şəxsiyyəti bütün yaradıcı düşüncəsi, anadilli poeziyanın təşəkkül və inkişaf dinamikasında sərgilədiyi məzmun, dil sadəliyi və səlisliyinin formalaşdırdığı təsəvvür baxımından bir xətti özündə ehtiva edirsə, digər istiqamət onun fikir axarının qan daşıyan damarlarının ortaya qoyduğu təsəvvürdür.

XVI əsrin görkəmli sənətkarı M.Füzuli "ey müəllim, aləti təzvirdir əşrarə elm, qılma əhli məkrə təlimi-maarif zinhar" (7, 170) söyləyirdi. Bütün bunlar yaradıcı düşüncəsində, insan və insanlıq timsalında yanaşma fərqliliyini (bir xəttə orijinallığı) ortaya qoyur. Nəsimi şeiri bu kontekstdə zəngin faktura ilə müəyyənləşir və onun təkcə şəxsiyyət konsepsiyasını deyil, həm də bu konsepsiyanın mahiyyətini, iç aspektlərini aşkarlayır. Ümumiyyətlə, şəxsiyyət və yaradıcı mühit, sosial sfera anlamında aparılan təhlillərdə, eləcə də yerindən-yurdundan asılı olmayaraq bütün situasiyalarda şəxsiyyətin görünüşü həmişə aktuallıq kəsb etmişdir. Biz onun kimliyinin və şəxsiyyət olmasının, hərəkət və davranışlarının hansı çərçivədə müəyyənləşməsi (bəlkə də əhatələməsi) məsələsinə xüsusi həssaslıqla yanaşırıq. Bir meyar və prinsip olaraq onun özünəməxsusluq, həm də keyfiyyət göstəricilərini sıralamağa çalışırıq. Həllac Mənsur, Fəzlullah Nəimi, İmadəddin Nəsimi şəxsiyyəti də bir etalon olaraq bütün zamanların fövqündə dayana bilmək gücü ilə səciyyələnir. Burada onların müəyyənləşdirdiyi sistem (dəyər) qeyri-iradi bütün zamanlar üçün qəbul olunacaq bir ortaqlığı, şəraitindən, mühitindən, fərdi marağından və s. asılı olmayaraq mövqe nümayiş etdirə bilmək və axıra qədər də buna sədaqət göstərə bilmək gücü ilə görünür. Ona görə də bu cür şəxsiyyətlərin olsa-olsa fiziki məğlubiyyəti (ölümü) mümkün ola bilər, lakin onlar mənəvi gücü (həm də qələbəsi) ilə həmişə və bütün zamanlarda qalibdi. H.Mənsurun, F.Nəiminin, İ.Nəsiminin yaşadığı və qarşılaşdığı aqibət məlumdu və həmin aqibətlə onlar və bu sıradan olanlar nümunədir. Bunların iddeyaları, apardıqları mücadilə qədər şəxsiyyətləri ölümsüzdü, həm də insanlıq üçün örnəkdir.

H.Mənsurun, F.Nəiminin, İ.Nəsiminin şəxsiyyəti bütün stixiyası ilə uca və əzəmətlidir. Ədəbi-nəzəri fikir bunları günümüzə qədər müxtəlif kontekstlərdə təhlilə gətirmiş və orta əsrlərin daşıyıb gətirdiyi dürlü əhvalat, hekayə, rəvayətlər hamısı xalqın ideallarından, ona sahib durma istəyinin müəyyənləşdirdiyi təsəvvürdən boy qaldırır. Onları günümüzə daşıyıb gətirən bir xətt də haqlarında olan hekayətlərdir. Şəxsiyyət olaraq haqlarında dolaşılanlar, mücadilə və istəklər yolunda gördükləri onlara əbədiyaşarlıq bəxş etmişdir. Bu gün H.Mənsurun, F.Nəiminin, İ.Nəsiminin işarələdiyi təsəvvür (təltəlşüur) bəlkə də bədii irsindən çox-çox öncə şəxsiyyətlərini diqqət önünə gətirir. Ustad sənətkarların, yaddaş adamlarının, eləcə də xalq yaradıcılığının bu və bu kimi adlar bəzəyinə çevrilmişdir. Onları şəxsiyyət olaraq simvollaşdırmışdır. Orta əsr qaynaqları İ.Nəsimi haqqında söhbət açanlar daha çox onunla bağlı yayılan hekayət və əhvalatları diqqət önünə gətirməklə yaradıcılığına münasibətə keçir. "Ağrımaz", "Sığmazam" qəzəllərindən çıxış etməklə Nəsimi dünyasına yol başlayır. İ.Nəsiminin faciəli şəkildə öldürülməsi siyasi mühitin bütünlükdə baş verənlərə etirazının cavabı idi və buna gəlişin ciddi narahatçılıqlarla dolu faktları, təhlil və nəticələri vardır. Ədəbi-mədəni mühit bu hadisədən sonra bir növ prosesin mürəkkəbliyində başqa tendensiya tutmaq yoluna baş vurdu. Daha doğrusu, düşüncənin, münasibətin digər formalarının axtarışına çıxdı və metaforik səviyyədə mövqe nümayiş etdirməklə cəmiyyətə mesajlarını sərgilədi. Siyasi mühitin üzdə qətiyyəti arxa planda ehtiyatlılığı qaçılmaz etdi. Beləcə ədəbi-mədəni, ictimai-siyasi mühitdə qarşılıqlı güzəştlər (razılaşmalar) özünə yer aldı. Hərəkatın yüksələn tipinin yeni, həm də enən mərhələsinin başlanğıcı qoyuldu. "Biz ki, Rum içində abdal olmuşuq, bu cahanda fariqül-bal olmuşuq" mərhələsinin (təsəvvürünün) əbədi olacaq sistemi məlum sonluqla müəyyənləşdi. "Bir əcaib şaha verdim könlümü" deyən sənətkar bütün parametrlərdə özünün timsalında hürifiliyin, arifliyin, şəxsiyyətin ucalıq meyarını müəyyənləşdirdi. "Böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsimi ədəbiyyat tariximizdə anadilli fəlsəfi şeirin əsasını qoymuş, məhəbbət və gözəllik nəğməkarı kimi şöhrət tapmışdır. Onun ağıl-hikmət örnəyi olan şeirləri dünyaya və həyata yeni bir münasibət və düşüncənin bədii ifadəsidir, insan və onun mənəvi əzəməti haqqında yazılmış himnlərdir" (14, 307). Bütün bunların nəticəsi olaraq orta əsrlərin keşməkeşlərində Nəsimi ucalığı və Nəsimi fenomeni müəyyənləşir. Həllac Mənsurdan Fəzullah Nəimiyə, oradan da İmadəddin Nəsimiyə gələn yol bütün gücü ilə öz mənəvi gücünü ortaya qoyur və "bulmuşam Həqqi, ənəlhəq söylərəm, Həq mənəm, Həq məndədir, Həq söylərəm" konsepsiyasını bir daha nümayiş etdirir. Fəzullah Nəimi timsalında müəyyənləşən yolun meyarı və davamçısı olaraq daha bir ucalıq nümunəsini sərgiləyir.

F.Nəiminin ictimai-siyasi, ədəbi-mədəni və fəlsəfi məfkurəsinin bütün aspektlərdə dərinliklərini özündə ehtiva edən İ.Nəsimi inam, əqidə, məfkurə sahibi olaraq axıra qədər bu yolun dönməz davamçısı kimi ədəbi-nəzəri fikir tarixində mükəmməl təsəvvür formalaşdırmışdır. Hürufi simvolikası, ayrı-ayrı misra, söz, ifadə və bütünlükdə mətn simvolikası daxili məzmunu və bağlantıları ilə bütöv təsəvvürə yüklənir. Aparılan təhlillər bu sistemin işarəvi mahiyyətində nələrin dayandığını axıra qədər açmaq gücündə olmasalar da, tipoloji yanaşmalarda ümumi mahiyyəti diqqət önündə saxlamaq və saxlaya bilmək gücü ilə xüsusi maraq kəsb edirlər. "Sirlərin məlhəmi mürşidin xas həmdəmi Məcd, Kamil Haşimi, Məhəmməd, Əbülhəsəni, tap dördünü öyr", "əşq", "rəqəm" və onun təriqət mühitində sərgilədiyi məzmun "dəryayi-ümman" timsalında ("gözlərimdən sanasan dəryayi-ümman ayrılır") ciddi vurğunluğu sərgiləyir. "Əqli küllü, ərşi kürsü, lövhü qələm, çar ünsür, nöh asimandır söz" düşüncəsi bütün məzmunu ilə hürufiliyin və mənəvi zənginliyin mahiyyətini aydınlaşdırır. Bunlar isə öz mahiyyətində qaynaq olaraq daha dərinlərə, gizlinlərin açımına diqqət yetirməyi gərəkli edir. Quran, dini elmlər, hədislər, imamətlə əlaqəli bilgilər, islam dinindən ayrılmış təmayüllər, sufizmdən hürufiliyə gələn axınlar, hind, çin fəlsəfəsindən, maniliklən, məzyədilikdən və s. (buraya Tövrat, İncil və s. kimi səmavi kitabları da əlavə etmək olar) qarışanlar da özünə yer alır. "Eşqə məkan oldu eylə ki can, "kün" əmrini eşq bildi insan" deyən F.Nəimi bütün parametrlərdə eşqi başlanğıc və əsas olan kimi vurğulayır. Məhz bütün bunların timsalında İ.Nəsimi "mən əzəldən eşq ilə pir olmuşam" deyir. Son olaraq bütün bu təhlillər ədəbi-mədəni, tarixi-fəlsəfi axarın XIV əsr timsalında haradan gəldiyini, genetik kodlarını, arxaik mənzərəsini və daxili mahiyyətini sərgiləmək gücü ilə daha əhatəli və məfkurə hadisəsi olaraq daha ciddi yanaşmaları gərəkli edir.

***Mahmud ALLAHMANLI,***
***filologiya elmləri doktoru,***
***professor***